# MÜSTƏQİL AZƏRBAYCANIN LİDERLİK YOLU

*Azərbaycan xalqının tarixində 28 May 1918-ci il əlamətdar gündür. Həmin gün müsəlman Şərqində ilk dəfə olaraq demokratik, parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı. Bu hadisə həm ölkəmizin milli dövlətçilik tarixində dönüş nöqtəsi, həm də müasir Azərbaycanın hüquqi-siyasi təməlini təşkil edən mühüm mərhələdir. Müstəqillik anlayışının mənəvi, ideoloji və siyasi əsaslarını formalaşdıran AXC-nin fəaliyyəti bu gün Azərbaycan Respublikasının dövlət siyasətində öz real təcəssümünü tapır. Dövlətçiliyin əsas institutlarının yaradılması, milli təhsil və ordu quruculuğu, diplomatik tanınma və hüquqi bərabərlik kimi dəyərlər həmin dövrün mirası olmaqla bu gün də strateji istiqamət kimi davam etdirilir.*

**Dövlətçilik nümunəsi və müasirliyə körpü.** Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də Gürcüstanın Tiflis şəhərində Müsəlman Şərqində ilk demokratik respublika kimi elan olundu. Cəmi 23 ay yaşamasına baxmayaraq, bu dövlət mühüm qərarlar və islahatlarla Azərbaycanın gələcək siyasi varlığının əsasını qoydu. Cümhuriyyətin qəbul etdiyi qərarlar bu gün müasir Azərbaycanın ideoloji və hüquqi bazasında mühüm yer tutur. AXC müstəqilliyini elan etdikdən dərhal sonra dövlətin idarəetmə strukturlarını formalaşdırmağa başladı. Parlament yaradıldı və burada çoxpartiyalı sistem tətbiq olundu. Qanunvericilik, icra və məhkəmə orqanları təsis edildi. 1918-ci ilin iyununda Nazirlər Şurası formalaşdırıldı və ilk hökumət Gəncədə fəaliyyətə başladı. Dövlət rəmzləri - bayraq, gerb və himn qəbul edildi. Dövlət dili Azərbaycan dili elan olundu və bütün vətəndaşlara milli və dini mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlar verildi. Bu gün müasir Azərbaycan Respublikasının Konstitusiyası və hüquqi sistemi həmin dövrdə AXC tərəfindən atılmış addımlara söykənir. Dövlət suverenliyi, vətəndaş bərabərliyi, hüquqi dövlət anlayışı bu əsaslar üzərində inkişaf etdirilmişdir.

**Bakı Dövlət Universitetinin yaradılması.** Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində xüsusi yer tutan sahələrdən biri təhsil və maarifləndirmə idi. 1919-cu il sentyabrın 1-də AXC hökumətinin qərarı ilə Bakı Dövlət Universiteti təsis olundu. Bu addım dövlətin elmə, milli intellektual potensiala verdiyi dəyəri göstəricisidir. Müasir dövrdə Bakı Dövlət Universiteti (BDU) Azərbaycanın ali təhsil sistemində aparıcı rol oynayır. BDU AXC-nin qoyduğu təməl üzərində bu gün də yüz minlərlə tələbəyə yüksək ixtisaslı təhsil verir, beynəlxalq əməkdaşlıq qurur və Azərbaycan elminin inkişafına ciddi töhfə verir. Prezident İlham Əliyevin təhsil sahəsinə göstərdiyi qayğı nəticəsində universitet müasir infrastruktura təmin olunub və qlobal elmi mühitə inteqrasiya edib.



**Ordu quruculuğu.** AXC fəaliyyətə başladıqdan dərhal sonra ordu quruculuğuna da xüsusi diqqət yetirdi. 1918-ci ilin iyununda ilk müstəqil Azərbaycan hərbi hissələri yaradıldı. Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və yerli hərbi birləşmələrin birgə fəaliyyəti nəticəsində Bakı bolşevik-daşnak qüvvələrindən azad edildi. Bu gün Azərbaycanın güclü və peşəkar ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış və 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərlə öz gücünü nümayiş etdirmişdir. Müasir Azərbaycan Ordusunun təməli məhz AXC dövründə qoyulmuşdu.

**Diplomatiya.** AXC-nin fəaliyyətində mühüm istiqamətlərdən biri də diplomatik sahə olmuşdur. 1919-cu ilin dekabrında Azərbaycan nümayəndə heyəti Paris Sülh Konfransında iştirak etdi və nəticə etibarilə 1920-ci ilin yanvarında ABŞ və digər böyük dövlətlər AXC-ni de-fakto tanıdı. Bu, Azərbaycan tarixində beynəlxalq aləmdə tanınma baxımından ilk rəsmi uğur idi. Hazırda Azərbaycan Respublikası dünyanın 180-dən artıq ölkəsi ilə diplomatik əlaqələr qurub, BMT, ATƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarda fəal mövqe tutur. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzu davamlı olaraq yüksəlir.

Qeyd etmək lazımdır ki, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra bolşeviklər tərəfindən milli atributlarımız qadağan olundu. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin sessiyasında üçrəngli bayraq rəsmi olaraq qəbul edildi və ilk dəfə dövlət bayrağı kimi Naxçıvan Muxtar Respublikasında dalğalandırıldı. Bu fakt Azərbaycanın müstəqil dövlətçilik iradəsinin sönmədiyini, milli-mənəvi dəyərlərin qorunub saxlanıldığını və müstəqilliyin bərpasına gedən yolun Naxçıvandan başlandığını göstərir. Məhz bu addım sonrakı illərdə bütöv Azərbaycan Respublikasında üçrəngli bayrağın dövlət rəmzi kimi tanınmasına yol açdı. 1991-ci ildə SSRİ-nin süqutu ilə Azərbaycan müstəqilliyini bərpa etdi. Əslində bu müstəqillik böyük sosial-iqtisadi və siyasi problemlər fonunda elan olundu. Ermənistanın işğalçılıq siyasəti, Qarabağda gedən müharibə, daxili qarşıdurmalar və siyasi qeyri-sabitlik ölkəni dağılmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev müstəqilliyi qoruyaraq möhkəmləndirdi və hüquqi dövlət quruculuğu, iqtisadi islahatlar, enerji strategiyası və beynəlxalq əlaqələrin inkişafında mühüm addımlar atdı. 1994-cü ildə "Əsrin müqaviləsi" ilə Azərbaycanın neft potensialı dünya bazarına çıxarıldı. Bu, ölkənin iqtisadi müstəqilliyini və inkişafını təmin edən əsas amilə çevrildi. Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunan 1995-ci il Konstitusiyası ölkədə hüquqi və demokratik cəmiyyətin əsaslarını formalaşdırdı.

**Davamlı inkişaf və qlobal mövqe.** 2003-cü ildə Prezident seçilən İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanı bölgənin lider dövlətinə çevirdi. Onun rəhbərliyi ilə neft və qaz sahəsində beynəlxalq layihələr, iqtisadi şaxələndirmə siyasəti və sosial proqramlar həyata keçirildi. Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsi ilə Avropanın enerji təhlükəsizliyində strateji mövqe qazandı. İnfrastrukturun inkişafı, kənd təsərrüfatının modernləşməsi və qeyri-neft sektorunun genişləndirilməsi nəticəsində ölkə davamlı iqtisadi artım əldə etdi. 2020-ci ilin payızında başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi, 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğal altındakı torpaqları azad edərək və regionda yeni reallıqlar yaratdı. Bu qələbə Azərbaycanın siyasi, hərbi və diplomatik gücünün nəticəsi idi və ölkəmizin suverenliyini tam təmin etdi. Bu Qələbə yalnız hərbi uğur deyildi, həm də Azərbaycan xalqının milli qürurunun, dövlət müstəqilliyinin və siyasi iradəsinin təntənəsi idi. Prezident İlham Əliyev bu müharibəni həm döyüş meydanında, həm də informasiya və diplomatik müstəvidə yüksək peşəkarlıqla idarə etdi. Azərbaycanın haqq səsi dünya ictimaiyyətinə çatdırıldı, işğal faktı beynəlxalq səviyyədə tanındı və Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur edildi. Bu müharibədə qazanılan zəfər sübut etdi ki, Azərbaycan Respublikası nəinki siyasi və iqtisadi cəhətdən güclü dövlətdir, eyni zamanda yüksək hərbi potensiala, milli birlik və vətənpərvərlik ruhuna malik bir ölkədir. Məhz bu uğurların təməlində 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin idealları, Heydər Əliyev siyasi irsi və Prezident İlham Əliyevin müasir dövlətçilik fəlsəfəsi dayanır.

**İdeoloji, milli və strateji yanaşmalar.** Bu gün 28 May - Müstəqillik Günü təkcə tarixi bir hadisənin ildönümü deyil, həm də Azərbaycan dövlətinin ideoloji özünüdərki, milli kimlik duyğusunun təcəssümüdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu bayram daha geniş miqyasda, ictimai, siyasi və ideoloji səviyyədə qeyd olunur. 2021-ci ildən etibarən 28 May dövlət səviyyəsində "Müstəqillik Günü" kimi rəsmiləşdirildi. Azərbaycan gəncliyinin və vətəndaş cəmiyyətinin bu tarixi düzgün mənimsəməsi üçün dövlət tərəfindən maarifləndirmə tədbirləri, konfranslar, sərgilər və kitab layihələri həyata keçirilir. Müstəqillik Günü artıq təkcə keçmişə baxış deyil, eyni zamanda gələcəyə baxış - güclü, müstəqil, rifahlı Azərbaycanın gələcəyinə olan inamın simvoludur.

28 may 1918-ci ildə əsası qoyulan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olaraq dünya tarixində iz qoydu. Bu dövlətin hüquqi, siyasi və ideoloji irsi bu gün müasir, suveren və güclü Azərbaycan Respublikasının təməlində dayanır. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və dövlətçilik fədakarlığı nəticəsində Azərbaycanın müstəqilliyi qorundu və gücləndirildi. Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə bu müstəqillik daha da möhkəmləndi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu və dövlətimiz regionun liderinə çevrildi. 28 May bizim üçün yalnız tarixi bir gün deyil, milli qürur günüdür. Bu gün biz təkcə dövlətçilik tariximizi deyil, həm də gələcək nəsillərə ötürüləcək azadlıq, suverenlik və milli birlik ideyasını yaşadırıq. Hər bir Azərbaycan vətəndaşı bu günü qürurla qeyd edir, çünki bu gün müstəqil, güclü, əbədi yaşayacaq Azərbaycanın simvoludur.

**Bəxtiyar NƏBİYEV,**
**YAP Yasamal Rayon Təşkilatının sədri.**